**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət

Komitəsi Əmr 189

«12» avqust 2003-cü il

Sədr _______________ H. Babayev

(02 iyul 2004-cü il tarixli 097 №-li Əmrin redaksiyasında)

# Qiymətli kağızlar bazarında diler fəaliyyətinin həyata keçirilməsi Qaydaları

1. Ümumi müddəalar.

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" Əsasnaməyə müvafiq olaraq hazırlanmışdır.

1.2 Bu Qaydalar Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan dilerin fəaliyyətini tənzimləyir.

2. Əsas anlayışlar.

2.1. Anderrayter - emitentlə bağlanılmış müqavilə əsasında qiymətli kağızların yerləşdirilməsini həyata keçirən dilerdir;

2.2. Diler fəaliyyəti - hüquqi şəxsin müəyyən qiymətli kağızların alış və (və ya) satış qiymətlərini elan edib, bu qiymətli kağızların elan edilmiş qiymətlər üzrə alınması və (və ya) satılmasını öhdəsinə götürməklə, öz adından və öz hesabına qiymətli kağızlarla alqı-satqı əqdlərini bağlaması hesab olunur;

2.3. Qiymətli kağızların qiymətinin kütləvi elanı - qiymətli kağızların qiymətini göstərməklə alqısı və (və ya) satqısı barədə açıq elan formasında edilmiş təklifdir (ofertadır);

2.4. Market meyker - ticarətin təşkilatçılarında və fond birjalarında ticarətə buraxılmış qiymətli kağızların likvidliyinin artırılması öhdəliklərini üzərinə götürmüş dilerdir.

3. Diler fəaliyyətinə tələblər

3.1. Diler öz fəaliyyətini qiymətli kağızların alınması (satılması) şərtlərini şəxslərin qeyri-müəyyən dairəsinə təklif etməklə öz adından və öz hesabına alqı-satqı əqdlərini bağlamaqla həyata keçirməlidir.

3.2. Diler onun əvvəlcədən elan etdiyi şərtlərə uyğun gələn alqı-satqı müqavilələrinin bağlanmasından həmin şərtləri dəyişdirmək yolu ilə imtina edə bilməz.

3.3. Qiymətli kağızların qiymətinin elanında alqı-satqı müqaviləsinin aşağıdakı mühüm şərtləri öz əksini tapmalıdır:

3.3.1. Qiymətli kağızın növü, emitentinin adı, dövlət qeydiyyat nömrəsi və nominal dəyəri;

3.3.2. Alınan və satılan qiymətli kağızların sayı (minimal və maksimal sayı göstərilə bilər);

3.3.3. Qiymətli kağızların alqı və (və ya) satqı qiyməti;

3.3.4. Qiymətli kağızların qiymətinin elanının qüvvədə olma müddəti (ticarətin təşkilatçısı və fond birjası istisna olmaqla).

3.4. Diler yalnız mülkiyyətində olan və ya sərəncam hüququna malik olduğu qiymətli kağızların satışı haqqında elan verə bilər.

3.5. Diler öz fəaliyyətində qiymətli kağızların qiymətləri ilə manipulyasiyaya yol verməməlidir.

3.6. Qiymətli kağızlarla aparılan əməliyyatlar barədə məlumatın diler tərəfindən açıqlanması həcmini və qaydasını Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

3.7. Diler QKDK tərəfindən müəyyən olunmuş qaydada hesabatı ona təqdim etməlidir.

4. Dilerin ticarətin təşkilatçısında və fond birjasında fəaliyyətinin xüsusiyyətləri

4.1. Diler ticarətin təşkilatçısı və fond birjası ilə bağlanılan müqaviləyə əsasən market-meyker kimi çıxış edə bilər.

4.2. Diler market-meyker kimi çıxış etdikdə, onun vəzifələri fond birjası ilə bağlanmış müqavilədə öz əksini tapmalıdır.

5. Dilerin qiymətli kağızların yerləşdirilməsində fəaliyyətinin xüsusiyyətləri

5.1. Diler emitentlə qiymətli kağızların yerləşdirilməsi haqqında müqavilə bağlaya bilər və bu halda diler anderrayter kimi çıxış edir.

5.2. Diler anderrayter kimi çıxış etdikdə, emitentin qiymətli kağızlarının buraxılışının bütövlüklə, yaxud bir hissəsinin yerləşdirməsinə təminat verir.

6. Məsuliyyət

6.1. Bu Qaydaların müddəalarını pozan dilerlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

7. Qüvvəyə minmə qaydası

7.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.